Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəsi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Rafiq Abbasovun 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 75 saylı Lənkəran-Masallı seçki dairəsindən Mahmudavar bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Ağayev Kamaləddin Muğbil oğlunun Mərkəsi Seçki Komissiyasına daxil olmuş 06 yanvar 2015-ci il tarixli, 135 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 07 yanvar 2015-ci il

Mən, ekspert qrupunun üzvü Rafiq Abbasov 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 75 saylı Lənkəran-Masallı seçki dairəsindən Mahmudavar bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Ağayev Kamaləddin Muğbil oğlunun Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 3 yanvar 2015-ci il tarixli, 135 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən araşdırmaya qəbul edilmişdir.

75 saylı Lənkəran-Masallı seçki dairəsindən Mahmudavar bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Ağayev Kamaləddin Muğbil oğlu Mərkəzi Seçki Komissiyasına müraciət edərək, adıçəkilən bələdiyyəni əhatə edən seçki məntəqələrində qanun pozuntularının olduğunu və bununla bağlı müvafiq seçki dairəsi dairə seçki komissiyası tərəfindən qəbul edilmiş qərardan narazı qaldığını bildirmiş və müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqularının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü kimi tərəfimdən icraata qəbul edilmiş və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipini əsas götürülərək, qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Araşdırma zamanı müəyyən edilmişdir ki, ərizəçi K.M.Ağayev 75 saylı Lənkəran-Masallı seçki dairəsi üzrə Mahmudavar bələdiyyəsinin əhatə etdiyi 32, 33, 34 və 35 saylı seçki məntəqələrində baş vermiş qanun pozuntuları ilə bağlı aidiyyət qaydasına düzgün əməl etməyərək, 2014-cü ilin dekabrın 27-də Mərkəzi Seçki Komissiyasına müraciət etmiş, onun müraciətinə 2014-cü il dekabrın 28-də baxılaraq Komissiyanın 20/134 saylı Qərarı ilə aidiyyəti üzrə baxılması üçün adıçəkilən seçki dairəsinin dairə seçki komissiyasına göndərilmişdir. Həmin

müraciətə mahiyyəti üzrə baxılmış və onun təmin edilməməsi barədə müvafiq dairə seçki komissiyası tərəfindən 30 dekabr 2014-cü il tarixli 34/88 saylı qərar qəbul edilmişdir.

Ərizəçi K.M.Ağayevin müraciətinin araşdırılması zamanı 75 saylı Lənkəran-Masallı seçki dairəsinin 32, 33, 34 və 35 saylı seçki məntəqələri məntəqə seçki komissiyaları üzvlərinin, Mahmudavar bələdiyyəsi üzvlüyünə qeydə alınmış, lakin seçilməmiş namizədlərin, həmin seçki məntəqələrində səsvermə günü müşahidə aparmış müşahidəçilərin izahatlarına və tərtib edilmiş aktlara əsasən müəyyən edilmişdir ki, mübahisələndirilən seçki məntəqələrində səsvermə seçicilərin yüksək fəallığı ilə keçmiş, səsvermə prosesi əvvəldən sona qədər müxtəlif siyasi partiyaları təmsil edən və öz təşəbbüsü ilə müşahidə aparan müşahidəçilərin bilavasitə müşahidəsi ilə həyata keçirilmişdir.

Belə ki, 75 saylı Lənkəran-Masallı seçki dairəsinin 32, 33, 34 və 35 saylı seçki məntəqələri məntəqə seçki komissiyalarının üzvləri N.H.Əliyev, Z.S.Ağayev, H.O.Ağayev, G.S.Qasımov, Ç.İ.Fərəcov, C.D.Xanməmmədov, İ.R.Rəsulov, E.Ə.Əkbərov, Ə.Y.Babayev, S.A.Şükürov, A.A.Süleymanov, S.Y.Əzizov, Ş.A.Məmmədova, Mahmudavar bələdiyyəsi üzvlüyünə qeydə alınmış, lakin seçilməmiş digər namizədlər F.Q.Hüseynov, M.Ş.Rüstəmov, A.X.Nəhmətov, Ə.Ə.Hidayətov və H.M.Əliyev, müşahidəçilər X.H.Əliyev, E.Ə.Babayev, Ə.İ.Fərəcov, V.B.İsmayılov, A.N.Tağıyev, T.Ə.Məmmədova, F.V.Babayev, A.B.Kərimov, Z.Y.Ağayeva, Ç.F.Fərəcov, həmçinin şikayətçi K.M.Ağayevin təyinatı əsasında 35 saylı seçki məntəqəsində müşahidə aparan M.M.Kərimov yazılı izahatlarında bildirmişlər ki, seçkilər günü seçki məntəqələrində səsvermə, o cümlədən seçki subyektləri tərəfindən bütün seçki hərəkətləri seçki qanunvericiliyində nəzərdə tutulmuş qaydalara uyğun olaraq çoxsaylı müşahidəçilərin müşahidəsi ilə həyata keçirilmiş, müvafiq seçki komissiyalarına hər hansı qanun pozuntuları barədə heç bir şikayət daxil olmamış, səsvermə keçirilən seçki məntəqələrində seçkilərin təşkili və keçirilməsi, habelə səsvermənin nəticələri ilə bağlı hər hansı qanun pozuntusuna rast gəlməmiş, səslər hesablandıqdan sonra səsvermənin nəticələri haqqında protokolun surəti dairə seçki komissiyasının məlumat lövhəsindən asılmaqla bərabər, onlara da verilmişdir.

Bundan başqa, araşdırma prosesində ərizəçi ilə əlaqə yaradılmış, araşdırmada iştirak etmək hüququ barədə ona məlumat verilmiş və müraciətdə qeyd edilən halların təsdiq edilməsi ilə əlaqədar əlavə dəlillər təqdim etmək hüququnun olması nəzərinə çatdırılsa da, o, belə dəlillərə malik olmadığını bildirmişdir.

Tam, obyektiv və qərəzsiz araşdırma ilə əldə edilmiş yazılı sübutlarla müraciətdə iddia olunan hallar təkzib olunduğundan şikayət təmin edilməməli və 75 saylı Lənkəran-Masallı seçki dairəsi dairə seçki komissiyasının 30 dekabr 2014-cü il tarixli 34/88 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci və “Azərbaycan Respublikası Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və

müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 75 saylı Lənkəran-Masallı seçki dairəsindən Mahmudavar bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Ağayev Kamaləddin Muğbil oğlunun 6 yanvar 2015-ci il tarixli, 135 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, həmin dairə seçki komissiyasının 30 dekabr 2014-cü il tarixli 34/88 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Rafiq Abbasov